**Azərbaycan Respublikası Rabitə Nazirliyinin 1998-ci il 10 sentyabr tarixli 289 nömrəli əmri ilə təsdiq edilmiş və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən 1998-ci il 17 sentyabr tarixli 128 nömrəli şəhadətnamə verilməklə dövlət qeydiyyatına alınmış "Telefon rabitəsindən istifadə Qaydaları"nın və Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin 2007-ci il 9 avqust tarixli 135 nömrəli əmri ilə təsdiq edilmiş və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən 2007-ci il 24 avqust tarixli 3356 nömrəli şəhadətnamə verilməklə dövlət qeydiyyatına alınmış "Telefon rabitəsindən istifadə Qaydaları"na əlavə və dəyişikliklər"in ləğv edilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 19 iyun tarixli 185 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi haqqında Əsasnamə"nin 5.5.3-cü yarımbəndini rəhbər tutaraq Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi

**qərara alır:**

1. Azərbaycan Respublikası Rabitə Nazirliyinin 1998-ci il 10 sentyabr tarixli 289 nömrəli əmri ilə təsdiq edilmiş və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən 1998-ci il 17 sentyabr tarixli 128 nömrəli şəhadətnamə verilməklə dövlət qeydiyyatına alınmış "Telefon rabitəsindən istifadə Qaydaları" və Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin 2007-ci il 9 avqust tarixli 135 nömrəli əmri ilə təsdiq edilmiş və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən 2007-ci il 24 avqust tarixli 3356 nömrəli şəhadətnamə verilməklə dövlət qeydiyyatına alınmış "Telefon rabitəsindən istifadə Qaydaları"na əlavə və dəyişikliklər" ləğv edilsin.

2. Hüquq şöbəsinə tapşırılsın ki, bu qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün 3 (üç) gün müddətində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə göndərilməsini təmin etsin.

3. Bu qərar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir.

4. Sənədlərlə iş şöbəsinə tapşırılsın ki, bu qərarın aidiyyəti üzrə Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Aparatının struktur bölmələrinə, onun strukturuna daxil olan və tabeliyindəki qurumlara, habelə digər telekommunikasiya operatorlarına göndərilməsini təmin etsin.

5. Hüquq, Tənzimləmə, Telekommunikasiya və poçt və Maliyyə və iqtisadi təhlil şöbələrinə tapşırılsın ki, bu qərardan irəli gələrək zəruri tədbirlər görsünlər.

**Nazir** **Ramin Quluzadə**